MUSİQİ

Dərslik

2

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NƏRGİZ RƏCƏBOVA
ŞƏHLA QULİYEVA
ZEMFİRA ƏLİYEVA

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün

MUSİQİ

fənni üzrə

DƏRSLİK

© “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

MÜNDƏRİCAT

Bölmə	Mövzu	Səhifə
1. Mahnı janrı	1. Vətənpərvər mahnılar	6
	2. Əmək mahnıları	8
	3. Laylalar	10
	4. Mahnı-oyunlar	12
2. Marş janrı	5. İdman marşları	14
	6. Yürüş marşları	16
	7. Təntənəli marşlar	18
3. Rəqs janrı	8. Əmək rəqsləri	20
	9. Məzəli rəqslər	22
	10. Qəhrəmani rəqslər	24
	11. Mahnı, marş, rəqs	26
4. Melodiya, ritm, temp	12. Melodiya və intonasiya	28
	13. Musiqi ritmləri	30
	14. Asta, orta və tez templər	32
5. Lad, ölçü, dinamika	15. Major ladı	34
	16. Minor ladı	36
	17. Musiqi ölçüsü: "Bir və, iki və"	38
	18. Musiqi ölçüsü: "Bir və, iki və, üç və"	40
	19. Səsin gücü – dinamika	42
	20. Musiqi dili	44
6. Musiqidə məzmun və forma	21. Musiqidə məzmun	46
	22. Musiqi obrazları	48
	23. Birhissəli musiqi əsərləri	50
	24. İkihissəli musiqi əsərləri	52
	25. Üçhissəli musiqi əsərləri	54
7. Konsert zalında	26. Bəstəkar-ifaçı-dinləyici	56
	27. Afişa	58
	28. Konsertə hazırlıq	60
	29. Bayram konserti	62

Saz

Salam, dostlar!
Sizi musiqi dərslərində görməyə çox şadıq!
Bu il sizinlə birlikdə musiqi aləminə
səyahətimizi davam etdirəcəyik!

Ney

Musiqi əsərinin dinləmə qaydaları:

Əvvəldən axıra qədər diqqətlə dinləyin.

Dinləyərkən sakitliyə riayət edin.

Mahnının ifa qaydaları:

Qamətinizi düz saxlayın.

Nəfəsi burunla alın, ağızla yavaş-yavaş verin.

Mahnını ifadəli oxuyun.

Fəaliyyətlərin şərti işarələri:

Oxumaq

Dinləmək

Rəqs etmək

Tapşırıq

Lüğət

Özünüzü yoxlayın

Dərslikdəki QR kodlara müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.

1-ci bölmə

MAHNI JANRI

Mahnı musiqi janrıdır. O, sözlə musiqinin birləşməsindən yaranır.

DƏRS 1

VƏTƏNPƏRVƏR MAHNILAR

Niyə Vətən haqqında mahnılar bizə əzizdir?

Vətən təkcə torpaq deyil. Vətən bizik, hamımızıq! Vətənimizi tərənnüm edən, müdafiəsinə səsləyən mahnılar çoxdur. Belə mahnılardan biri Azərbaycan Respublikasının Dövlət Himnidir. O, milli birliyimizi – azərbaycançılığımızı bildirir.

Dövlət himni hər bir ölkənin əsas mahnısıdır, dövlət rəmzlərindən biridir.

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin, *sözləri* Əhməd Cavadındır.

1 **Verilmiş sözlərdən himnin xarakterinə uyğun olanları seçin.**

dinc, sehrli, təntənəli, zərif, vətənpərvər, cəsarətli, həzin

Üzeyir Hacıbəyli dahi Azərbaycan bəstəkarıdır. Onun musiqisi milli-mənəvi sərvətimizdir. Bəstəkarın dünya şöhrətli əsərləri sevilə-sevilə ifa olunur. Üzeyir Hacıbəylinin bəstələdiyi Azərbaycan Respublikasının Dövlət Himni və "Bayram günü" mahnısı xalqımızın birliyini, vətənpərvərliyini, qürurunu və mübarizliyini ifadə edir.

2 **Düzgün cavabları seçin.**

- Üzeyir Hacıbəylinin musiqisi milli-mənəvi sərvətimizdir.
- "Bayram günü" Azərbaycan xalq mahnısıdır.
- Azərbaycan Respublikasının Dövlət Himninin bəstəkarı Üzeyir Hacıbəylidir.

"Bayram günü"

Musiqisi Üzeyir Hacıbəylinin, *sözləri* Mirmehdi Seyidzadənindir.

3 **"Bayram günü" mahnısının xarakterinə uyğun olan şəkli seçin.**



Dinlədiyiniz mahnılar sizdə hansı hissləri oyatdı?

DƏRS 2

ƏMƏK MAHNILARI



Əmək mahnıları nə üçün ifa olunur?

Qədimdə insanlar iş görən zaman mahnı oxuyardılar. Bu mahnılar müəyyən bir əməyi əks etdirirdi. Əmək mahnıları xoş əhvali-ruhiyyəli, gümrah xarakterlidir.

"Sabahın ustaları"

Musiqisi Ağabacı Rzayevanın, *sözləri* Hüseyn Abbaszadənindir.

Musiqisiz və musiqi sədaları altında əməyin müxtəlif növlərini hərəkətlərlə göstərin.

DİRİJORLUQ HƏRƏKƏTLƏRİ



"Mişar"

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Cahangir Məmmədovundur.

Birinci bənd
Lazım olan şeyləri
Arif yığdı yanına.
Evcik tikmək istədi
Balaca Toplanına.

Nəqərat
Ay mişar, tələs, mişar,
Taxtanı tez kəs, mişar.

İkinci bənd
Neçə yol ölçdü, biçdi,
Yorulmadan çalışdı.
Öz sevimli işinə
Başı yaman qarışdı.

Nəqərat
Ay mişar, tələs, mişar,
Taxtanı tez kəs, mişar.

Üçüncü bənd
Ətrafda nə vardısa,
Görünmədi gözünə.
Evcikdən çıxmaq üçün
Yer qoymadı özünə.

Nəqərat
Ay mişar, tələs, mişar,
Taxtanı tez kəs, mişar.

T 2 **"Mişar" mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.**

Ağabacı Rzayeva Azərbaycanın ilk peşəkar qadın bəstəkarlarından biridir. Onun yaradıcılığında uşaq mahnıları geniş yer tutur. Uşaqlar "Gəl, gəl, a yaz günləri!", "Göyərçinim", "Kukla", "Sabahın ustaları", "Mişar" kimi mahnıları böyük həvəslə oxuyurlar.

T 3 **Ağabacı Rzayevaya məxsus olmayan mahnını seçin:**

a) "İdman"
b) "Sabahın ustaları"
c) "Mişar"

İş görərkən bildiyiniz hansı mahnını oxuyardınız?

DƏRS 3

LAYLALAR

Nə üçün körpələri yatızdırarkən laylalar oxunur?



Laylalar körpələri yatızdırarkən oxunan mahnılardır.
Laylalara *beşik nəğmələri* də deyirlər. Bu mahnılarda "laylay", "balam" sözləri təkrarlanır.

"Ana laylası"

Musiqisi Oqtay Zülfüqarovun, *sözləri* Rəfiq Zəkanındır.

T 1

Verilmiş sözlərdən "Ana laylası" mahnısının xarakterinə uyğun olanı seçin.

təntənəli, həzin, şən, sehrli, cəsarətli, zarafatyana

“Laylay”

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.

Birinci bənd

Laylay, mənim kukla balam, a laylay,
Laylay dedim, yuxula balam, a laylay,
Məstan yatdı, tez yat, laylay, a laylay,
Yer də saldım rahat, laylay, a laylay.

İkinci bənd

Laylay dedim, sən baxmadın sözümə,
Laylay dedim, yuxu gəldi gözümə.
Gərək mən də yatam, laylay, a laylay.
Desin anam, atam, laylay, a laylay.

2 **“Laylay” mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.**

Oqtay Zülfüqarov Azərbaycanda uşaq mahnılarının bəstəkarı kimi tanınır. O, uşaqlar üçün gözəl və maraqlı mahnılar yaratmışdır. Bəstəkarın “Ana laylası”, “Laylay”, “Gözəl Vətən”, “Qonaqlıq”, “İdman” və digər mahnıları dillər əzbəridir.

3 **Oqtay Zülfüqarovun mahnılarının adlarını tapmaq üçün krossvordu həll edin.**

1. Sağlamlıq üçün edilən hərəkətlər
2. Körpələri yatızdırarkən oxunan nəğmələr
3. Ad günündə insanların bir yerə yığışması



Dinlədiyiniz laylaları siz kimin üçün oxuyardınız?

DƏRS 4

MAHNI-OYUNLAR

Mahnını oyun kimi necə göstərmək olar?



Mahnılar arasında mahnı-oyunlar da vardır. Mahnı-oyunların xarakteri əyləncəli və şəndir. Hər bir mahnı-oyunun öz qaydaları olur.

"İdman"

Musiqisi Oqtay Zülfüqarovun, *sözləri* Səttar Zərdablınındır.

Birinci bənd

Kim sevirsə idmanı,
Bir, iki, üç, dörd.
Poladdan olar canı,
Bir, iki, üç, dörd.

Nəqərat

Bir, iki, üç, dörd.
Bir, iki, üç, dörd.

İkinci bənd

İdmanı sevirik biz,
Bir, iki, üç, dörd.
Bərkiyir bədənimiz,
Bir, iki, üç, dörd.

Nəqərat

Bir, iki, üç, dörd.
Bir, iki, üç, dörd.

T 1 **"İdman" mahnısını oxuyarkən kartda verilmiş idman hərəkətlərini yerinə yetirin.**

"Musiqili idman" mahnı-oyununun qaydaları:
"İdman" mahnısı ifa olunur. Oyun iştirakçıları mahnıdakı "bir", "iki", "üç" və "dörd" sözlərini oxuduqda kartda verilmiş idman növünün hərəkətlərini icra edirlər.

“Bənövşə” Azərbaycan uşaq xalq mahnısı

“Bənövşə” mahnı-oyununun hərəkətlərini yerinə yetirin.

“Bənövşə” mahnı-oyununun qaydaları:

“Bənövşə” Azərbaycan uşaq xalq mahnısı səsləndirilir. Oyun iştirakçıları mahnıdakı “açıl”, “gizlən”, “dikəl” və “yığıl” sözlərini eşitdikcə şəkillərdə verilmiş müvafiq hərəkətləri icra edirlər.

Hansı mahnıları oyun kimi göstərərdiniz?

İnsanların dəqiq addımlamasını müşayiət edən musiqi marş adlanır. Bəzi mahnıları marş janrına da aid etmək olar.

DƏRS 5

İDMAN MARŞLARI

İdman və marş musiqisini necə əlaqələndirmək olar?



İdman yarışları və Olimpiya oyunları zamanı səslənən marşlar idman marşları adlanır. İdman marşları gümrah xarakterli olur. Bu musiqi sədaları altında idmançılar meydana daxil olur və komandalar şəklində fəxri dövrə vururlar.

"Gənc idmançılar marşı"

Musiqisi Musa Mirzəyevin, *sözləri* Hikmət Ziyanındır.

Birinci bənd

Polad kimi bədənimiz,
"Gənc idmançı" adımız var.
Qüvvətliyik, sağlamıq biz,
Sıramıza gəlin, dostlar.

Nəqərat

Bizə yarış meydanıdır
Düzlər, çaylar, gen üfüqlər.
Hər oyunda, hər yürüşdə,
Üzümüzə gülür zəfər.

İkinci bənd

Məşq edirik yorulmadan,
Bərkiyirik gündən-günə.
Yeni-yeni zəfərlərə,
Çatmaq üçün sabah yenə.

Nəqərat

Bizə yarış meydanıdır
Düzlər, çaylar, gen üfüqlər.
Hər oyunda, hər yürüşdə,
Üzümüzə gülür zəfər.

1 **“Gənc idmançılar marşı” mahnısının musiqisinə uyğun kartdakı idman növünü hərəkətlərlə təsvir edin.**



Musa Mirzəyev görkəmli Azərbaycan bəstəkarıdır. O, uşaqlar üçün müxtəlif musiqi əsərləri yaratmışdır. Həmin əsərlərdən “Marş” pyesini və “Gənc idmançılar marşı” mahnısını misal göstərmək olar.

2 **Verilmiş sözlərdən istifadə edib cümlə qurun.**

Musa Mirzəyev, bəstəkar, marş, idman, xarakter, mahnı, milli ruh

Pyes kiçik musiqi əsəridir.

“Marş” pyesi

Musiqisi Musa Mirzəyevindir.

3 **“Marş” pyesinin musiqisinə uyğun addımlayın.**

Dərsdə dinlədiyiniz hansı marşın sədaları altında idman edərdiniz?

DƏRS 6

YÜRÜŞ MARŞLARI

Niyə yürüş marşlarında musiqi alətlərindən istifadə olunur?

Yürüş marşları Vətənin müdafiəsinə çağırış kimi səslənir və qələbəyə ruhlandırır. Müxtəlif yürüşlərdə və hərbi keçid zamanı səslənən marşlar yürüş marşlarıdır. Onlar insanların bir yerdə nizamlı addımlamalarına kömək edir. Bu marşların ifasında nəfəsli və zərb alətlərindən istifadə olunur.

Marşı izləmək üçün

Zərb aləti zərbə vurmaqla və ya silkələməklə səs çıxaran musiqi alətidir.

nağara

şaxşax

zəng

dəf

"Vətən"

Musiqisi Səid Rüstəmovun,
sözləri Süleyman Rüstəmindir.

Birinci bənd

Ey Vətən, torpağın əzizdir mənə,
Mən səndə tapmışam səadətimi.
Könüldən mahnılar qoşmuşam sənə
Çevirib bayrağa məhəbbətimi.

Nəqərat

Şöhrətim, ey Vətən, şanım, ey Vətən,
Sən mənim adımı ellərə yaydın.
Ürəyim, ey Vətən, canım, ey Vətən,
Mən şair olmazdım, sən olmasaydın.

İkinci bənd

Gözümü dünyaya açanda ilkin
Anamı görmüşəm, səni görmüşəm.
Əhdinə vəfalı bir oğul təki
Döyünən qəlbimi sənə vermişəm.

Nəqərat

Şöhrətim, ey Vətən, şanım, ey Vətən,
Sən mənim adımı ellərə yaydın.
Ürəyim, ey Vətən, canım, ey Vətən,
Mən şair olmazdım, sən olmasaydın.

T 1 **"Vətən" mahnısını xarakterinə uyğun ifa edin.**

2 **“Vətən” mahnısını barabanlarda müşayiət etməklə yerinizdə addımlayın.**

baraban

Səid Rüstəmov, əsasən, mahnı janrında yazan Azərbaycan bəstəkarlarından biridir. Onun bir çox mahnıları vətən, əmək, təbiət haqqındadır. Bəstəkarın “Vətən”, "Sərhədçilərin mahnısı", “Sumqayıt”, “Sürəyya”, “Bənövşə” və başqa mahnıları da vardır.

3 **Səid Rüstəmov haqqında məlumatları gülün ləçəklərində qeyd edin.**

Yürüş zamanı barabanı hansı musiqi aləti ilə əvəz edərdiniz?

DƏRS 7

TƏNTƏNƏLİ MARŞLAR



Marş musiqisinin təntənəli səslənməsi üçün onu necə ifa etmək olar?

Zəfər paradını izləmək üçün

Təntənəli marşlar hərbi paradlarda, bayram tədbirlərində səslənir. Bu marşların musiqisi əzəmətlidir. Təntənəli marşlar idman və yürüş marşlarından daha asta sürətlə ifa olunur.

"Ey Vətən"

Musiqisi Üzeyir Hacıbəylinin, *sözləri* Səməd Vurğunundur.

1 **“Ey Vətən” mahnısını cədvələ uyğun zərb musiqi alətlərində müşayiət edin.**

	1	2	3	4	5	6
Nağaraya vurmaq						
Zəngi silkələmək						
Barabana vurmaq						

3 dəfə

“Vətən”

Musiqisi Səid Rüstəmovun,
sözləri Süleyman Rüstəmindir.

2 **Yürüş zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə aid tanıtım lövhələri ilə “Vətən” mahnısını təntənəli oxuyun.**

SUQOVUŞAN 03.10.2020

CƏBRAYIL 04.10.2020

HADRUT 09.10.2020

FÜZULİ 17.10.2020

ZƏNGİLAN 20.10.2020

QUBADLI 25.10.2020

ŞUŞA 08.11.2020

AĞDAM 20.11.2020

KƏLBƏCƏR 25.11.2020

LAÇIN 01.12.2020

Dərsdə səslənən musiqi sizdə hansı hisslər yaratdı?

DƏRS 8

Rəqslərdə musiqi sədaları altında insanlar hisslərini və müxtəlif hadisələri hərəkətlərlə ifadə edirlər. Rəqs xarakterli mahnılar da çoxdur.

ƏMƏK RƏQSLƏRİ

Müxtəlif əmək növlərini rəqsdə necə göstərmək olar?

Müxtəlif əmək növlərini təsvir edən rəqslər vardır. Bunlar əmək rəqsləri adlanır. Həmin rəqslərdə görülən iş hərəkətlərlə ifadə olunur. Əmək rəqsləri, əsasən, kollektiv ifa edilir.

"Görüş" bədii filmindən bir parça izləmək üçün

"Pambığı" Azərbaycan xalq rəqsi

1 "Pambığı" rəqsini xarakterinə uyğun ifa edin.

Rəqs elementləri sxemi



Azərbaycan xalq rəqsləri olduqca rəngarəngdir. Rəqslərimiz xalqımızın milli xüsusiyyətini, həyat və məişətini özündə əks etdirir.

Şəfiqə Axundova Azərbaycanın görkəmli bəstəkarıdır. Onun əsərləri ölkəmizdə geniş yayılmışdır. Bəstəkar uşaqlar üçün "Zəfər bizimdir", "Əziz müəllim", "Doğma məktəb", "Üzümçülər" və başqa mahnılar da yazmışdır.

2 **Verilmiş sözlərdən istifadə edib cümlə qurun.**

yazıb, Şəfiqə Axundova, bəstəkar, əsərlər, uşaqlar

"Üzümçülər"

Musiqisi Şəfiqə Axundovanın, *sözləri* Cavad Cavadlınındır.

Birinci bənd

Qara şanı qara gözüm,
Göy tənəkdə düzüm-düzüm,
Becərmişəm onu özüm.
Hər tənəyi bir qanadım,
Üzümçüdür mənim adım.

İkinci bənd

Gilələri sarı, ağdır,
Salxımları çilçıraqdır,
Süfrələrə axacaqdır.
Hər yaşıl bağ bir muradım,
Üzümçüdür mənim adım.

3 **"Üzümçülər" mahnısını oxuyarkən üzüm yığımını rəqs hərəkətləri ilə göstərin.**

Daha hansı əmək növlərini rəqsdə təsvir edərdiniz?

DƏRS 9

MƏZƏLİ RƏQSLƏR

Məzəli əhvalatı rəqsdə necə təsvir etmək olar?



İnsan tez-tez gülməli əhvalatlarla rastlaşır. Belə əhvalatlar məzəli rəqslərdə də öz əksini tapır. Məzəli rəqslərə yumor və oyun elementləri məxsusdur.

"Xurcun" Azərbaycan xalq rəqsi

T 1 **Şəkillərdəki hadisələrin ardıcıllığını rəqs hərəkətləri ilə təsvir edin.**

"Məzəli əhvalat"

1 Qızlar bağda meyvə dərib xurcunlarına yığır.

2 Oğlanlar gizlincə boş xurcunlarını qızların dolu xurcunları ilə dəyişir.

3 Qızlardan biri xurcunların dəyişdirilməsini görüb rəfiqələrini çağırır.

4 Qızlar oğlanları rəqsə dəvət edir.

5

Oğlanlar xurcunları bir kənara qoyub rəqs edir.

6

Bu zaman üç qız xurcunları təkrar dəyişib rəqsə qoşulur.

7

Sonra oğlanlar xurcunlara yaxınlaşdıqda onların boş olduğunu görür.

8

Hamı bir yerdə bu əhvalata gülüb, rəqsə davam edir.

Yumoreska zarafatyana pyesdir.

"Yumoreska" pyesi

Musiqisi Musa Mirzəyevindir.

Kartda təsvir olunan heyvanın "məzəli rəqsi"ni hərəkətlərlə göstərin.

Daha hansı məzəli əhvalatı rəqsdə təsvir edərdiniz?

DƏRS 10

QƏHRƏMANİ RƏQSLƏR

Qəhrəmani xarakteri rəqsdə necə əks etdirmək olar?



Tarixən düşmən üzərində çalınan hər bir qələbə böyük xalq bayramına çevrilərdi. İgidlərin şəninə dastanlar qoşular, mahnılar bəstələnər, rəqslər yaranardı. Qəhrəmani rəqslərin xarakterində xalqımızın mərdliyi və cəsarəti təmsil edilir. Belə rəqslər qələbəyə, yeni-yeni uğurlara səsləyir.

"Cəngi" Azərbaycan xalq rəqsi

"Cəngi" rəqsini xarakterinə uyğun ifa edin.

Rəqs elementləri sxemi



“Sadiq olaq Vətənə”

Musiqisi və sözləri
Oqtay Zülfüqarovundur.

Birinci bənd

Azad etdi Vətəni
Xalqımızın qüdrəti.
Tarixlərdə yaşasın
Azəri, türk milləti.

Nəqərat

Babalartək hər zaman
Sadiq olaq Vətənə.
Zəfər çalaq, ucalaq,
Qalib gələk düşmənə.

İkinci bənd

Sevək işi, zəhməti,
Ağ günlərə yol olsun.
Əkək, quraq, yaradaq,
Sərvətimiz bol olsun.

Nəqərat

Babalartək hər zaman
Sadiq olaq Vətənə.
Zəfər çalaq, ucalaq,
Qalib gələk düşmənə.

2 **“Sadiq olaq Vətənə“ mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.**

3 **“Sadiq olaq Vətənə” mahnısının xarakterinə uyğun rəqs edin.**

Dərsdə səslənən mahnı və rəqsi hansı tədbirlərdə ifa edərdiniz?

DƏRS 11

MAHNI, MARŞ, RƏQS

Mahnı, marş və rəqslərdə bayram əhvali-ruhiyyəsini necə ifadə etmək olar?



Həyatımızı mahnı, marş və rəqslər rəngarəng edir. Mahnı, marş və rəqs musiqidə üç əsas janrdır. Bu janrlar bir-birinə təsir etmiş və mahnı, marş, rəqs xarakterli yeni musiqi nümunələri yaranmışdır. Belə musiqi nümunələri gündəlik həyatda, bayramlarda, tədbirlərdə və asudə vaxtlarda səslənir.

"Əziz uşaqlar!
Qarşıdan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu münasibətlə sizi şənliyə dəvət edirəm. Şənlikdə oyun keçirək, çalaq, oxuyaq, oynayaq!"

Şaxta baba

1 Dinlədiyiniz musiqi nümunəsinin adını və janrını müəyyənləşdirin.

MAHNI | MARŞ | RƏQS

Musiqi nümunələrini dinləmək üçün

2 Marş musiqisinin sədaları altında addımlayın. Mahnını və rəqsi xarakterinə uyğun ifa edin.

Dinlədiyiniz mahnı, marş və rəqsin daha hansı bayramlarda səslənməsini arzu edərdiniz?

DƏRS 12

MELODİYA VƏ İNTONASİYA

Musiqi aləmi çox zəngindir. Bu aləmin gözəlliyini başa düşmək üçün musiqi ifadə vasitələrini bilmək lazımdır.

Musiqinin kiçik hissəsi nədən danışa bilər?



Hər bir musiqi əsərinin melodiyası var. Melodiya musiqi ifadə vasitəsidir. Onun hərəkəti qalxan və enən olur. Melodiyada xarakter və ayrı-ayrı hissləri müxtəlif intonasiyalar əks etdirir. Nitqimizdə olduğu kimi, musiqidə də sual, nida, təsdiq, mehriban, inandırıcı, təəccüb və s. intonasiyalar vardır.

"Cücələrim"

Musiqisi Qəmbər Hüseynlinin, *sözləri* Tofiq Mütəllibovundur.

Cip-cip cücələrim,
Cip-cip-cip-cip cücələrim,
Mənim qəşəng cücələrim,
Tükü ipək cücələrim.

Birinci bənd

Gözləyirəm, tez gəliniz,
Göy çəmənda dincəliniz.

Nəqərat

Ay mənim cücələrim,
Ay mənim cücələrim,
Mənim göyçək cücələrim.

Cip-cip cücələrim,
Cip-cip-cip-cip cücələrim,
Mənim qəşəng cücələrim,
Tükü ipək cücələrim.

İkinci bənd

Gəlin sizə yemək verim,
Mən su verim, çörək verim.

Nəqərat.

Üçüncü bənd

Arzum budur boy atasız,
Ananıza tez çatasız.

Nəqərat.

"Not evi"
Not musiqi səsinin yazı işarəsidir. Notlar 5 xətdən ibarət not sətrində yazılır. Bəzi notlar əlavə xətlərdə yazılır.

1 **Verilmiş intonasiyaya uyğun "Cücələrim" mahnısının nəqəratını ifa edin.**

şıltaq | hirsli | şən | mehriban | qəmli



Qəmbər Hüseynli görkəmli Azərbaycan bəstəkarıdır. O, uşaqlar üçün "Dağlar", "Qaliblər mahnısı", "Bahar xoş gəlib", "Cücələrim" mahnılarını və başqa musiqi əsərlərini bəstələmişdir. Bəstəkarın dillər əzbəri olan "Cücələrim" mahnısı 100-dən çox xalqın dilinə tərcümə edilmişdir.

2 **Bəstəkar Qəmbər Hüseynliyə aid cümlələri tamamlayın.**

1. *Bəstəkar Qəmbər Hüseynli ..., ..., ... mahnılarının müəllifidir.*
2. *... mahnısı ...-dən çox xalqın dilinə tərcümə olunub.*

3 **Verilmiş sxemə görə aşağı və yuxarı səs sırasını çalın.**





Dərsdə ən çox xoşunuza gələn nə idi?

DƏRS 13

MUSİQİ RİTMLƏRİ

Musiqinin ritmini necə göstərmək olar?

Ürək döyüntüsünü dinləmək üçün

Bizi əhatə edən aləmdə müxtəlif ritmlər var: ürək döyüntüsü, gecə və gündüzün əvəzlənməsi, fəsillərin dəyişməsi və s. Musiqi də ritmsiz olmur. Ritm musiqi ifadə vasitələrindən biridir. Uzun və qısa səslər, pauzalar müəyyən ardıcıllıqla təkrarlanır və nəticədə müxtəlif ritmik şəkillər yaranır. Çox vaxt musiqinin xarakterini, janrını onun ahəng, oynaq və marş ritminə görə müəyyən etmək olur.

	NOT	*PAUZA*
ÇƏRƏK	♩	𝄽
SƏKKİZLİK	♪	𝄾
	♩ = ♪ + ♪	𝄽 = 𝄾 + 𝄾

"Cücələrim"

Musiqisi Qəmbər Hüseynlinin, *sözləri* Tofiq Mütəllibovundur.

Ritmik şəkil: "Cücələrim"

Cip - cip cü - cə - lə - rim, Cip - cip - cip - cip cü - cə - lə - rim.

Ritm səs və pauzaların müəyyən ardıcıllıqla təkrarlanmasıdır.

Pauza musiqinin səslənməsində fasilədir.

"Qaliblər mahnısı"

Musiqisi Qəmbər Hüseynlinin,
sözləri Ələkbər Ziyatayındır.

Birinci bənd

Bizi dağlar qartalıtək böyüdən
Bir anasan, ey doğma yurd, ey Vətən!
Öz mahnını öyrədirsən bizə sən,
Qaliblərin mahnısıdır bu mahnı.

İkinci bənd

Bu mahnıyla ötür aylar, fəsillər,
Ağ günlü bir dünya qurur nəsillər.
Qulaq verin, ellər, ellər, ay ellər,
Qaliblərin mahnısıdır bu mahnı.

Üçüncü bənd

Bu mahnıyla, uşaqlar, ay uşaqlar,
Dərs oxuyub, boy atırıq bəxtiyar!
Qoy deyirik – bilsin yaxın-uzaqlar,
Qaliblərin mahnısıdır bu mahnı.

1 **"Qaliblər mahnısı"nı ritmik şəklinə görə zərb musiqi alətlərində müşayiət edin.**

Ritmik şəkil: "Qaliblər mahnısı"

2 dəfə

Bi - zi dağ - lar qar - ta - lı - tək bö - yü - dən
Bir a - na - san, ey doğ - ma yurd, ey Və - tən!

2 **"Qaliblər mahnısı"nın birinci bəndini xarakterinə uyğun oxuyun.**

Dərsdə ritm haqqında yeni nə öyrəndiniz?

DƏRS 14

ASTA, ORTA VƏ TEZ TEMPLƏR

Temp musiqinin xarakterinə necə təsir edir?

Musiqinin xarakteri və əhvali-ruhiyyəsi onun ifa sürətindən asılıdır. Musiqidə bayram əhvali-ruhiyyəsini, hərəkəti, həyəcanı, kədəri, düşüncəni, təmkinliyi və s. tempin vasitəsilə ifadə etmək olar.

Tempin növləri

asta

orta (mülayim)

tez

Temp musiqi əsərinin ifa sürətidir.

"Qaliblər mahnısı"

Musiqisi Qəmbər Hüseynlinin, *sözləri* Ələkbər Ziyatayındır.

1 **"Qaliblər mahnısı"nı orta tempdə oxuyun.**

"Məktəbə gedərkən" pyesindən bir parça

Musiqisi Qəmbər Hüseynlinindir.

2 **"Məktəbə gedərkən" pyesinin müxtəlif templərdə ifasına uyğun simanı seçib müvafiq sütunda yerləşdirin.**

asta tempdə

orta tempdə

tez tempdə

şən

qəmli

hirsli

təəccüblü

ciddi

Temp	Asta	Orta	Tez
Xarakter	?	?	?

Hansı tempdə musiqi əsərləri daha çox xoşunuza gəlir?

DƏRS 15

MAJOR LADI

Lad, ölçü, dinamika da musiqi ifadə vasitələridir. Musiqi ifadə vasitələri bir-biri ilə sıx bağlıdır.

Musiqinin əhvali-ruhiyyəsi nədən asılı ola bilər?



Major musiqinin əsas ladlarından biridir. Major ladında yazılan musiqi əsərlərinin intonasiyaları çox zaman şən, gümrah və yüksək əhvali-ruhiyyəni əks etdirir.

Major ladını dinləmək üçün

"Cırtdan" cizgi filmindən bir parça

Lad musiqinin əhvali-ruhiyyəsini əks etdirən musiqi ifadə vasitəsidir.

“Qatar”

Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.

Birinci bənd

Qatar gəlir uzaqdan,
Taq-taq, taq-taq, taq-taq-taq.
Gözləyirəm bayaqdan,
Taq-taq, taq-taq, taq-taq-taq.
Tələs, tələs, ay qatar,
Yel kimi əs, ay qatar.
Tələs, tələs, ay qatar,
Yel kimi əs, ay qatar.

İkinci bənd

Yol gəlir gündüz-gecə,
Taq-taq, taq-taq, taq-taq-taq.
Ürəyim vurur necə,
Taq-taq, taq-taq, taq-taq-taq.
Atam gəlir səfərdən,
Gözləyirəm səhərdən.
Yaxınlaşır qatar bax,
Taq-taq, taq-taq, taq-taq-taq.

1 **“Qatar” mahnısının əhvali-ruhiyyəsinə görə kartdakı simanı seçin.**

a)

b)

2 **“Qatar” mahnısını xarakterinə uyğun oxuyun.**

Fikrət Əmirov dünya şöhrətli Azərbaycan bəstəkarıdır. O, uşaqlar üçün rəngarəng musiqi əsərləri yazmışdır. Fikrət Əmirov “Bahar gəlir”, “Qatar”, “Quşlar”, ”Bizim həyət” və başqa mahnıların müəllifidir.

3 **Fikrət Əmirov haqqında bildiklərinizi çərçivələrdə qeyd edin.**

Təbiətin hansı hadisəsini major ladında əks edərdiniz?

DƏRS 16

MİNOR LADI

Musiqi əsərinin ladını necə müəyyən etmək olar?



Musiqinin əsas ladlarından biri də minor ladıdır. Minor ladında yazılan musiqi əsərlərinin intonasiyaları, adətən, qəmli, sakit, fikirli və küskün əhvali-ruhiyyəni əks etdirir.

Minor ladını dinləmək üçün

Ladın növləri

- **major**
- **minor**

"Quşlar"

Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.

Birinci bənd
Quşlar, quşlar, uçan quşlar,
Göydə qanad açan quşlar.
Gəlin qonun ağaclara,
Gəlin qonun ağaclara.

Nəqərat
Deyin, uçursuz hara?
Deyin, uçursuz hara?

İkinci bənd
Yaşıl sərin bağlarımız,
Gül-çiçəkli dağlarımız.
Çəmənimiz, düzümüz var,
Gəlin sizə sözümüz var.

Nəqərat
Deyin, uçursuz hara?
Deyin, uçursuz hara?

Üçüncü bənd
Qorxmayın, biz daş atmarıq.
Sinənizi qanatmarıq.
Bağçamızda çox uşaq var,
Sizi sevər, oynadarlar.

Nəqərat
Deyin, uçursuz hara?
Deyin, uçursuz hara?

1 **“Quşlar” mahnısının əhvali-ruhiyyəsinə görə kartdakı simanı seçin.**

a)



b)

2 **Kartda verilmiş əhvali-ruhiyyə ilə “Quşlar” mahnısını oxuyun.**

Birinci bənd və nəqərat

sakit

İkinci bənd və nəqərat

küskün

Üçüncü bənd və nəqərat

fikirli

3 **“Quşlar” və “Qatar”mahnılarını müqayisə edin.**



“Qatar”

“Quşlar”



Dərsdə səslənən mahnı sizdə hansı hisslər yaratdı?

DƏRS 17

MUSİQİ ÖLÇÜSÜ: “Bir və, iki və”

Musiqidə ölçünü necə göstərmək olar?

Musiqidə vurğulu və vurğusuz səslər olur. Onlar müəyyən qaydada növbələşir. Bu cür səslərin növbələşməsi musiqi ölçüsü adlanır. Musiqi ölçüləri müxtəlifdir. Musiqi ölçülərinə müvafiq dirijorluq sxemləri olur. Elə musiqi əsərləri var ki, onların ölçüsünə görə *“bir və, iki və”* sayaraq dirijorluq etmək lazımdır.

Dirijorluq sxemi



başlanğıc vəziyyət | bir və | iki və

Musiqi ölçüsü vurğulu və vurğusuz səslərin müəyyən qaydada növbələşməsidir.

"Quşlar"

Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.

1 **"Quşlar" mahnısını dirijorluq edərək oxuyun.**

2 **"Quşlar" mahnısında vurğulu və vurğusuz səsləri kartlarda verilmiş hərəkətlərlə göstərin.**

vurğulu səsə
əl çalmaq

vurğusuz səsə
yumruqları
bir-birinə vurmaq

Ritmik şəkil: "Quşlar" mahnısı

Quş - lar, quş - lar, u - çan quş - lar, Göy - də qa - nad a - çan quş - lar.

"Yallı" Azərbaycan xalq rəqsi

3 **"Yallı" rəqsini xarakterinə uyğun ifa edin.**

Rəqs elementləri sxemi



Dərsdə sizin üçün
maraqlı olan nə idi?

DƏRS 18

MUSİQİ ÖLÇÜSÜ: “Bir və, iki və, üç və”

Musiqidə ölçü niyə lazımdır?

Dirijorluq sxemi



Elə musiqi əsərləri də var ki, onların musiqi ölçüsünə görə *“bir və, iki və, üç və”* sayaraq dirijorluq etmək lazımdır. Bu musiqi ölçüsü bir vurğulu və iki vurğusuz səslərin növbələşməsini əks etdirir.

başlanğıc vəziyyət



bir və



iki və

üç və

"Qərənfil"

Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

Birinci bənd

Qərənfilim açıb qönçə,
Yarpaqları incə-incə.
Ətir yayır hər tərəfə
Bağçamızda meh əsdikcə.

İkinci bənd

Var bağçada hər rəng çiçək,
Qərənfilim gözəl, göyçək.
Gülür bağda bahar çağı,
Söyləyir, gəl, ətrimi çək.

Üçüncü bənd

Bağda gördüm hər rəngini,
Sevdim gülün qəşəngini.
Mən ətrindən aldım onun,
Bu nəğmənin ahəngini.

1 **"Qərənfil" mahnısını dirijorluq edərək oxuyun.**

"Quzum" Azərbaycan xalq mahnısı

2 **"Quzum" mahnısını kartlarda verilmiş hərəkətlərlə müşayiət edin.**

vurğulu səsə
əl çalmaq

vurğusuz səsə
yumruq vurmaq

Ritmik şəkil: "Quzum" mahnısı



2 dəfə

qırmızı – vurğulu səslər, göy – vurğusuz səslər

Dərsdə ölçü haqqında
yeni nə öyrəndiniz?



DƏRS 19

SƏSİN GÜCÜ – DİNAMİKA

Səsin gücü ilə musiqidə nəyi göstərmək olar?

Nitqimizdə olduğu kimi, musiqi də "qışqıra" və ya "pıçıldaya" bilir. Musiqidə səsin gücünü dinamika ifadə vasitəsi bildirir. İki əsas dinamik çalar var: forte (güclü səslənmə) və piano (zəif səslənmə).

Dinamika səsin gücünü bildirən musiqi ifadə vasitəsidir.

"Qırmızı şar"

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Cahangir Məmmədovundur.

Birinci bənd
Böyük qardaşım mənə
Bir şar aldı hədiyyə.
Üstünə ulduz çəkib,
Onu uçurtdum göyə.

Nəqərat
Şarım qalxdı havaya,
Salam apardı Aya.
Şarım qalxdı havaya,
Salam apardı Aya.

İkinci bənd
Şarım uçdu, hey uçdu
Bapbalaca göründü.
Göyün lap ortasında
Ağ dumana büründü.

Nəqərat
Şarım qalxdı havaya,
Salam apardı Aya.
Şarım qalxdı havaya,
Salam apardı Aya.

Üçüncü bənd
Radionu qururam
Oyananda hər səhər,
Görən nə vaxt şarımdan
Verəcəklər bir xəbər.

Nəqərat
Şarım qalxdı havaya,
Salam apardı Aya.
Şarım qalxdı havaya,
Salam apardı Aya.

1 **“Qırmızı şar” mahnısını oxuyarkən nəqəratı kartda göstərilən dinamik çalarlarla ifa edin.**

Nəqərat

Şarım qalxdı havaya,
Salam apardı Aya. — ***f***–*forte*

Şarım qalxdı havaya,
Salam apardı Aya. — ***p***–*piano*

“Novruzu” Azərbaycan xalq rəqsi

Rəqs elementlərinin sxemi



1 2 3 4

2 **“Novruzu” rəqsini xarakterinə uyğun ifa edin.**

DƏRS 20

MUSİQİ DİLİ

Musiqi necə "danışa" bilər?



Musiqinin özünəməxsus dili var – musiqi dili. Bu dil sözlərdən yox, musiqi səslərindən ibarətdir. Musiqi ifadə vasitələrinin müxtəlifliyi musiqi dilini zəngin və rəngarəng edir.
Musiqi dili sehrlidir. İnsanları ağladan və güldürən musiqi fərqli hadisələr də danışa bilər.

"Qırmızı şar"

Musiqisi Ağabacı Rzayevanın, *sözləri* Cahangir Məmmədovundur.

1 **Sxemə görə "Qırmızı şar" mahnısının melodiyasını metallofonda çalın.**





2 **Cədvəli tamamlayın.**

Musiqi əsərinin adı	Melodiya	Ritm	Temp	Lad	Ölçü *(dirijorluq sxeminə əsasən)*	Dinamik çalarlar
"Qırmızı şar"	enən	oynaq	orta	?	?	?

"Novruzu" Azərbaycan xalq rəqsi

3 **"Novruzu" rəqsini ifa edərək kartlarda verilmiş Novruz çərşənbələrinin təsvirini hərəkətlərlə göstərin.**

Dərsdə sizə maraqlı olan nə idi?

6-cı bölmə

MUSİQİDƏ MƏZMUN VƏ FORMA

DƏRS 21

Musiqi əsərinin müəyyən məzmunu və forması olur. Hər bir musiqi əsərinin forması onun məzmunu ilə müəyyənləşir.

MUSİQİDƏ MƏZMUN

Musiqi əsəri nədən danışa bilər?

Musiqi əsərinin məzmunu həmin əsərdə nədən danışıldığını nəzərdə tutur.
Eyni janrlı müxtəlif əsərlər məzmununa görə fərqli ola bilər.
Musiqi əsərinin məzmunu musiqi ifadə vasitələrinin köməyi ilə ötürülür.

Melodiya	Ritm	Temp	Lad	Ölçü *(dirijorluq sxeminə əsasən)*	Dinamik çalarlar
qalxan	ahəng	asta	major	"bir və, iki və"	*f (forte)*
enən	oynaq	orta	minor	"bir və, iki və, üç və"	*p (piano)*
	marş	tez			

"Zəfər bizimdir"

Musiqisi Şəfiqə Axundovanın, *sözləri* Abdulla Şaiqindir.

Birinci bənd

Çəkil bu torpaqdan, ey xain düşmən,
Bu böyük xalqımı yaxşı tanı sən.
Göz dikmə sevimli ana yurduma,
Yurdum arxalanır mətin orduma!

İkinci bənd

Ürəkdən bağlıyıq ana vətənə,
Biz aman vermərik azğın düşmənə.
Bizimdir sevimli, bu gözəl torpaq,
Ana yurdumuzdan düşməni qovaq!

1 **"Zəfər bizimdir" mahnısının məzmunu haqqında fikirlərinizi cədvəldə yazın.**

Müəlliflərin adları	Melodiya	Ritm	Temp	Lad	Ölçü *(dirijorluq sxeminə əsasən)*	Dinamik çalarlar	Məzmun
Şəfiqə Axundova, Abdulla Şaiq	qalxan	marş	orta	minor	"bir və, iki və"	forte	?

2 **Ritminə uyğun addımlamaqla "Zəfər bizimdir" mahnısını ifadəli oxuyun.**

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin, *sözləri* Əhməd Cavadındır.

3 **Azərbaycan Respublikasının Dövlət Himninə aid məlumatları cədvəldə qeyd edin.**

Müəlliflərin adları	Melodiya	Ritm	Temp	Lad	Ölçü *(dirijorluq sxeminə əsasən)*	Dinamik çalarlar	Məzmun
?	?	?	?	?	?	?	?

"Qarabağ Azərbaycandır!" adlı musiqi əsəri yazsaydınız, hansı musiqi ifadə vasitələrini seçərdiniz?



DƏRS 22

MUSİQİ OBRAZLARI

Musiqidə obrazları necə müəyyən etmək olar?



Səsləri dinləmək üçün

Musiqi əsərində insanın həyatı, onun hiss və düşüncələri, təbiət hadisələri və s. obrazlar (surət) kimi verilir. Musiqi əsərində bir və ya bir neçə obraz ola bilər. Bu obrazlar qarşılıqlı əlaqədə olur və növbələşirlər. Nəticədə musiqi əsərinin məzmunu açıqlanır.

"Nənəm evdə qalıb tək"

Musiqisi və sözləri
Oqtay Zülfüqarovundur.

Birinci bənd

Nənəm evdə qalıb tək,
Gedək ona baş çəkək.
Axı məni o görcək
Ürəkdən sevinəcək.

İkinci bənd

Deyəcək: – "Sağ ol, nəvə,
Sevinc gətirdin mənə".
Sevinəcək, güləcək,
Üz-gözümdən öpəcək.

T 1 **"Nənəm evdə qalıb tək" mahnısında olan obrazları sadalayın.**

Kanon eyni melodiyanın müxtəlif səslərdə növbə ilə təkrar ifasıdır.



2 **“Nənəm evdə qalıb tək” mahnısını *f* və *p* dinamik çalarları ilə kanon ifa edin.**

“Hərəkətli kanon”

Oyunun qaydaları: Sinif iki qrupa bölünür: böyük qrup (1-ci səs), kiçik qrup (2-ci səs). Hər qrup bir dairə yaradır və iç-içə iki dairədə düzülür. Qrup üzvləri əl-ələ tutub dairədə hərəkət edərək mahnını oxuyur: böyük qrup *p*, kiçik qrup *f* dinamik çaları ilə. Hər “dairə” yalnız öz ifası zamanı hərəkət etməyə başlayır. Oyunda uşaqlar bir-birini dinləməli və musiqinin ritminə uyğun hərəkət etməlidirlər.

“Şəlalə” Azərbaycan xalq rəqsi

3 **Mətndəki obrazları rəqs hərəkətləri ilə təsvir edin.**

“Şəlalə”

Təbiətin gözəl bir yerində, hündür dağların arasından şəlalə axırdı. Yaxın kəndlər şəlalənin suyundan istifadə edirdi. Uşaqlar şəlaləyə tez-tez gedirdi. Onlar şəlalənin yaxınlığında oynayıb rəqs edir, evlərinə qayıdanda isə səhənglərində su aparırdılar. Çünki su həyatdır!

Musiqi obrazlarını müəyyən etmək üçün sizə hansı üsul daha asan oldu?

DƏRS 23

BİRHİSSƏLİ MUSİQİ ƏSƏRLƏRİ



Birhissəli quruluşu musiqidə necə müəyyən etmək olar?

Hər bir musiqi əsəri müəyyən quruluşa – formaya malikdir. Müxtəlif musiqi formaları var. Birhissəli quruluş musiqidə sadə formalardan biridir. Bu forma A hərfi ilə işarələnir.
Nəqəratsız, yalnız bəndlərdən ibarət olan mahnılar quruluşuna görə birhissəlidir.

Birhissəli musiqi əsərlərinin sxemi

A

"Qərənfil"

"Laylay"

"Quşlar"

"Üzümçülər"

"Qaliblər mahnısı"

"Qatar"

"Nənəm evdə qalıb tək"

Musiqisi və sözləri
Oqtay Zülfüqarovundur.

T 1 **Dinlədiyiniz melodiyaya görə "Nənəm evdə qalıb tək" mahnısının hansı bəndinin olduğunu müəyyən edin.**

Birinci bənd

Nənəm evdə qalıb tək,
Gedək ona baş çəkək.
Axı məni o görcək
Ürəkdən sevinəcək.

İkinci bənd

Deyəcək: – "Sağ ol, nəvə,
Sevinc gətirdin mənə".
Sevinəcək, güləcək,
Üz-gözümdən öpəcək.

a) Birinci bənd
b) İkinci bənd
c) Birinci və ikinci bənd

T 2 **Cədvəli doldurun.**

"Nənəm evdə qalıb tək" mahnısı	Melodiya	Ritm	Temp
I bənd	?	?	?
II bənd	?	?	?

T 3 **"Nənəm evdə qalıb tək" mahnısını ritminə və tempinə uyğun oxuyun.**

Dərsdə iştirakınızı necə qiymətləndirərdiniz?

DƏRS 24

İKİHİSSƏLİ MUSİQİ ƏSƏRLƏRİ



Musiqidə ikihissəli quruluşu necə müəyyən etmək olar?



İkihissəli musiqi əsərlərinin sxemi

A B

Musiqi formaları içərisində ikihissəli quruluş da vardır. İkihissəli quruluş sadə musiqi formasıdır. Bu musiqi formasında iki fərqli hissə olur. İkihissəli forma *AB* hərfləri ilə işarələnir. Nəqəratı olan mahnılar quruluşuna görə ikihissəlidir.

"Çal, oyna!" Azərbaycan xalq mahnısı

Cədvəli doldurun. 1

"Çal, oyna!" mahnısı	Melodiya	Ritm	Temp	Ölçü *(dirijorluq sxeminə əsasən)*
I hissə	?	?	?	?
II hissə	?	?	?	?

Azərbaycan xalq mahnılarının tarixi çox qədimdir. Xalq mahnıları nəsildən nəslə keçərək bu günə qədər böyük sevgi ilə qorunub saxlanmışdır. Belə mahnılardan biri – "Çal oyna!" Azərbaycan xalq mahnısıdır. Qeyd etmək lazımdır ki, xalq mahnılarımızı özününküləşdirməyə çalışan mənfur düşmən bu mahnını da mənimsəməyə cəhd etmişdir.

"Çal, oyna!" Azərbaycan xalq mahnısı

Birinci bənd

Dost bağında açılıb güllər,
Sarılıb gülə sarı bülbüllər,
Qızlar düzüb telinə güllər,
Gülürlər nazlana-nazlana.
Gülürlər nazlana-nazlana.

Nəqərat

Mehribanım, mehriban,
Dur, oyna, çal, oyna!
Yaxşı oğlan, qəşəng qız, çal, oyna!
Gözəl oğlan, gözəl qız, çal, oyna!

İkinci bənd

Dost bağında bitər alçalar,
Ağ çiçəkləyər, yetər alçalar.
Toylarda qayda belədir:
Oğlan oynar, qızlar əl çalar.
Oğlan oynar, qızlar əl çalar.

Nəqərat

Mehribanım, mehriban,
Dur, oyna, çal, oyna!
Yaxşı oğlan, qəşəng qız, dur, oyna!
Gözəl oğlan, gözəl qız, çal, oyna!

2 **"Çal, oyna!" mahnısının hissələrini xarakterinə uyğun ifa edin.**

İkihissəli formada yazılan mahnılardan hansını daha çox bəyəndiniz?

DƏRS 25

ÜÇHİSSƏLİ MUSİQİ ƏSƏRLƏRİ

Musiqidə üçhissəli quruluşu necə müəyyən etmək olar?

Sadə musiqi formalarından biri də üçhissəli quruluşdur. Üçhissəli forma üç hissədən ibarət olur və *ABA* hərfləri ilə işarələnir. Birinci və ikinci hissələr bir-birindən fərqli, üçüncü hissə isə, əsasən, birinci hissənin təkrarıdır.

Üçhissəli musiqi əsərlərinin sxemi

A B A

"Döyüşçülər marşı"

Musiqisi Üzeyir Hacıbəylinin, *sözləri* Səməd Vurğunundur.

Cədvəli doldurun.

"Döyüşçülər marşı"	Xarakter	Melodiya	Ritm	Temp	Ölçü *(dirijorluq sxeminə əsasən)*
dəyişilir	?	?	?	?	?
dəyişilmir	?	?	?	?	?

2 **“Döyüşçülər marşı” mahnısını dinləyərkən hissələrinin ritmini sxemdə verilmiş üsullarla göstərin.**

Birinci hissənin intonasiyası	İkinci hissənin intonasiyası	Üçüncü hissənin intonasiyası
		

“Çal, oyna!” Azərbaycan xalq mahnısı

3 **Dinlədiyiniz musiqi parçalarının quruluşunu müəyyən edin.**



DƏRS 26

BƏSTƏKAR-İFAÇI-DİNLƏYİCİ

Musiqisevərlər üçün konsert bayramdır. Konsertdə rəngarəng musiqilər ifa olunur. Konsert zalında insanlar musiqinin canlı ifasından zövq alırlar.

Konsertdən alınan əhvali-ruhiyyə daha çox kimdən asılıdır: bəstəkar, ifaçı, yoxsa dinləyicidən?



Musiqini sevməyən insan tapılmaz. Musiqi qədimdən bəri həyatımızın bir hissəsinə çevrilmişdir.

Bildiyiniz kimi, cəmi 7 musiqi səsi vardır. Bu səslərdən rəngarəng musiqi əsərləri yaranır. Bizi əhatə edən aləmi bəstəkarlar musiqi dili ilə öz əsərlərində ifadə edirlər. Həmin əsərləri ifaçılar konsertlərdə səsləndirir və dinləyiciləri musiqi aləmi ilə tanış edirlər.

Konsert müəyyən proqram (plan) əsasında musiqiçilərin kütlə qarşısında çıxışıdır.

"Bəxtiyar" bədii filmindən bir parça izləmək üçün

1 **Bədii filmdəki "konsert"də riayət olunan qaydaları cədvəldə qeyd edin.**

Mahnının ifa qaydaları	Qeyd üçün	Musiqi əsərinin dinləmə qaydaları	Qeyd üçün
1. Qamətinizi düz saxlayın. 2. Nəfəsi burunla alın, ağızla yavaş-yavaş verin. 3. Mahnını məzmununa uyğun ifadəli oxuyun.		1. Əvvəldən axıra qədər diqqətlə dinləyin. 2. Dinləyərkən sakitliyə riayət edin.	

"Yaxşı otur, yaxşı dur!"

Musiqisi Ağabacı Rzayevanın, *sözləri* İsmayıl Soltanındır.

Birinci bənd

Kirləmə üst-başını,
Yaxşı otur, yaxşı dur!
İncitmə yoldaşını,
Yaxşı otur, yaxşı dur!

İkinci bənd

Təmiz yu əl-üzünü,
Danış sözün düzünü.
Yerə sürtmə özünü,
Yaxşı otur, yaxşı dur!

2 **"Yaxşı otur, yaxşı dur!" mahnısını kanonla ifa edin.**

Bəstəkar Səid Rüstəmovun mahnılarından ibarət konsertdən bir parça

3 **Verilmiş sözlərdən istifadə edərək konsert haqqında təəssüratlarınızı yazın.**

konsert, bəstəkar, ifaçı, dinləyici, musiqi əsəri, əhvali-ruhiyyə

Konsertdə ifaçı, yoxsa dinləyici kimi iştirak etmək istərdiniz?



DƏRS 27

AFİŞA

Konsertə maraq yaratmaq üçün afişanı necə tərtib etmək olar?



Biz elanlara tez-tez rast gəlirik. Afişa da elanın bir növüdür. Burada konsertin adı, keçirildiyi yer, ifaçılar və ifa olunacaq musiqi əsərlərinin adları yazılır. Adətən, afişalar ictimai yerlərdə qurulmuş xüsusi lövhələrə yapışdırılır.

"Rəngbərəng afişa"

Musiqisi Oqtay Zülfüqarovun, *sözləri* Teymur Elçinindir.

Birinci bənd
Rəngbərəng afişa
Asılıb divarda.
Konsertə çağırır,
Durmayın kənarda.

İkinci bənd
Tez gəlin, oxuyub
Çalacaq artistlər,
İki-üç yaşında
Balaca artistlər.

Üçüncü bənd
Buyurun, əyləşin,
Hörmətli qonaqlar.
Konsertə başlayaq,
Tələsir uşaqlar.

1 **“Xoşbəxt uşaqlar” adlı konsertin afişası üçün şəkil çəkin.**

“Çal, oyna!”, “Cücələrim”, “Qatar”, “Yaxşı otur, yaxşı dur!”, “Qaliblər mahnısı”, “İdman”, “Vətən”, “Xurcun”, “Şəlalə”, “Yallı” musiqi nümunələrindən bir parça.

2 **Dinlədiyiniz musiqi nümunələrinin adlarını janrlarına görə cədvəlin müvafiq sütununda yazın.**

Mahnı	Marş	Rəqs

3 **“Xoşbəxt uşaqlar” adlı konsertin afişası üçün 2 mahnı, 1 marş, 1 rəqs seçin.**

Konsertin afişasına nəyi əlavə edərdiniz?

DƏRS 28

KONSERTƏ HAZIRLIQ



Nə üçün konsertdən əvvəl sonuncu məşq keçirilir?

Konsertlər hesabat, bayram və müxtəlif mövzulu olur. Hər bir konserti təşkil etmək üçün müəyyən hazırlıq işləri görülməlidir. Konsertin mövzusu, məzmunu, iştirakçıları müəyyən olunur və afişa tərtib edilir. İfaçılar konsertdə çıxış etmək üçün hazırlaşırlar.

1 **Afişada qeyd olunan mahnıları ifadəli oxuyun.**

Afişada qeyd olunan marş xarakterli musiqi nümunəsi

2 **Dinlədiyiniz musiqi nümunəsini zərb musiqi alətlərində xarakterinə uyğun müşayiət edin.**

3 **Afişada qeyd olunan rəqsi xarakterinə uyğun ifa edin.**

"Xoşbəxt uşaqlar" adlı konsertə kimi dəvət edərdiniz?

DƏRS 29

BAYRAM KONSERTİ

Əziz dostlar!
Bayram konsertində xoş gördük sizi!
Artıq "Xoşbəxt uşaqlar" adlı konsertin afişası vardır və siz bu konsertə hazırlaşmışsınız.
Sizcə, konsertin bayram əhvali-ruhiyyəsini necə əks etdirmək olar?

T 1 **Afişada verilmiş birinci mahnını xarakterinə uyğun ifa edin.**

Afişada verilmiş marş xarakterli musiqi nümunəsi

T 2 **Dinlədiyiniz musiqi nümunəsini zərb musiqi alətlərində xarakterinə uyğun müşayiət edin.**

T 3 **Afişada verilmiş ikinci mahnını xarakterinə uyğun ifa edin.**

T 4 **Afişada verilmiş rəqsi xarakterinə uyğun ifa edin.**

Buyurun, əyləşin,
Hörmətli qonaqlar.
Konsertə başlayaq,
Tələsir uşaqlar.

Dostlar, bayram konsertində daha çox nə xoşunuza gəldi?



İSTİFADƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN RESURSLAR

Üzeyir Hacıbəyli portalı
http://uzeyir.musigi-dunya.az

Azərbaycan Dövlət Uşaq Filarmoniyası
http://www.aduf.az/kollektiv.html

Məktəblinin Elektron Musiqi Kitabxanası
http://mk.musigi-dunya.az/songs.html

Musiqi Uşaq Bilik Portalı
https://portal.azertag.az/az/encyclopedia/post/11410

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı
http://music.mctgov.az

Buraxılış məlumatı

MUSİQİ 2

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Musiqi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Nərgiz Rəcəbova**
	Şəhla Quliyeva
	Zemfira Əliyeva
Psixoloq	**Səidə Əhmədova**
Buraxılışa məsul	**Rafiq Kazımov**
Dizayner və səhifələyici	**Aytən Alışova**
Üz qabığının dizayneri	**Nurlan Nəhmətov**
Multimedia mütəxəssisləri:	**Yusif Qabilov**
	Kənan Yusifzadə
Rəssamlar:	**Mərziyə Tağıyeva**
	Kamilla Hüseynzadə
	Nəzrin Hacıyeva
Redaktor	**Yeganə Abdullayeva**
Korrektor	**Nigar Əliyeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Samirə Bektaşi**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**

© “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-016

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələrilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 5,7. Fiziki çap vərəqi 8. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 64.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj 81145. Pulsuz. Bakı – 2021

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 17.07.2021

Çap məhsulunu nəşr edən:
“Şərq-Qərb” ASC
(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)

Çap məhsulunu istehsal edən:
“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC
(Bakı, AZ1052, F.Xoyski küç., 121A (149))

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!